İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ
KOMMUNİKASİYA
MƏRKƏZİ





# AZEXPORT.AZ

MADE IN AZERBAIJAN

# İXRAC İCMALI

2017-ci il / Dekabr №9



www.iqtisadiislahat.org
info@ereforms.org



**“Bizim əsas məqsədlərimizdən biri də odur ki, yerli istehsal artsın, iş yerləri yaradılsın və idxaldan asılılıq azalsın. Bu gün böyük şüşə zavodunun təməli qoyuldu. Bu zavod fəaliyyətə başlayandan sonra artıq Azərbaycanda şüşə idxalı dayandırılacaq. Əksinə, Azərbaycan özü şüşələri ixrac edəcək”**

## Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci il 15 dekabr tarixində Sumqayıt Kimya Sənaye Parkının ərazisində “STDC” Məhdud Məsuliyyətli Cəmiyyətinin Məlumatların Emalı, Qeydə Alınması və Ötürülməsi Mərkəzinin açılışı mərasimindəki çıxışından

*“Bu gün ölkə iqtisadiyyatı, sənaye potensialı üçün vacib olan müəssisələr fəaliyyətə başlayır. O müəssisələr ki, idxaldan asılılığı aradan götürəcək. Bu, məni çox sevindirir. Çünki bizim əsas məqsədlərimizdən biri də odur ki, yerli istehsal artsın, iş yerləri yaradılsın və idxaldan asılılıq azalsın. Bu gün böyük şüşə zavodunun təməli qoyuldu. Bu zavod fəaliyyətə başlayandan sonra artıq Azərbaycanda şüşə idxalı dayandırılacaq. Əksinə, Azərbaycan özü şüşələri ixrac edəcək....*

*Bu gün, eyni zamanda, siqaret fabrikinin təməli qoyulubdur. Bu fabrikin də çox böyük əhəmiyyəti var. Biz indi siqaret idxalından asılıyıq. Əlbəttə, biz hamımız istəyirik ki, Azərbaycanda siqaret istehlakı azalsın, insanlar bu pis vərdişdən əl çəksinlər. Ancaq hələ ki, bu, belə deyil. Əlbəttə, daxili istehsal xarici istehsalı əvəzləməlidir. Bu fabrikdə istehsal olunacaq məhsul daxili tələbatın əlli faizini bağlayacaq. Əminəm ki, gələcəkdə biz daxili tələbatımızı 100 faiz ödəyəcəyik və eyni zamanda, xarici bazarlara ixrac edəcəyik. Bu gün Azərbaycanda tütünçülük çox sürətlə inkişaf edir. Əlbəttə ki, tütünçülüyün son məhsulu olan siqaret istehsalı da Azərbaycanda yaradılır.*

*Pestisid zavodunun tikintisi artıq öz həllini tapıb. Bu da çox vacib sahədir. Mənim göstərişimlə bu sahəyə böyük diqqət ayrılır. Çünki bu günə qədər biz yenə də idxaldan asılıyıq. İndi daxili tələbatı bu parkda yaradılan zavod tam ödəyəcək. Gələcəkdə - növbəti mərhələdə isə ixrac imkanı da yaradılacaq”.*

# MÜNDƏRİCAT

SƏHİFƏ 4
Qeyri-neft sektoru üzrə ixrac
2017-ci ilin 11 ayında qeyri-neft sektoru üzrə1 milyard 387 milyon ABŞ dolları dəyərində ixrac olmuşdur

SƏHİFƏ 8
Reytinq
Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərinin reytinqi

SƏHİFƏ 10
AZEXPORT.AZ
Azexport.az portalına 2017-ci ilin 11 ayında 444.6 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur

SƏHİFƏ 13
AZEXPORT.AZ
İxrac missiyamız Dubayda və Ciddədə uğurlu naticələr əldə etmişdir

SƏHİFƏ 15
Bazar araşdırması
Kənd Təsərrüfatı Nazirliyi biyanın dünya bazarlarına ixracı imkanlarını araşdırmışdır

SƏHİFƏ 17
İxrac potensialı
İnnovativ məhsullar və İT xidmətlərin ixrac potensialı müzakirə olunmuşdur

SƏHİFƏ 18
Təlim
Pambıq, tütün və ipək məhsullarının istehsalı, emalı və ixracı ilə məşğul olan yerli şirkətlərin nümayəndələrinə təlim keçirilmişdir

# Qeyri-neft sektoru üzrə ixraca dair məlumat

## 2017-ci ilin 11 ayında qeyri-neft sektoru üzrə 1 milyard 387 milyon ABŞ dolları dəyərində ixrac olmuşdur

Cari ilin 11 ayı ərzində qeyri-neft sektoru üzrə ixrac **1 milyard 387 milyon** ABŞ dolları təşkil etmişdir. Bu isə 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixracın 22 faizdən çox artdığını göstərir. Qeyd edilən müddətdə ixrac əməliyyatlarında 1824 subyekt iştirak etmişdir. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən 2017-ci ilin 11 ayı ərzində ən çox qeyri-neft məhsullarımız Rusiya Federasiyasına ixrac edilmişdir. Belə ki, cari ilin 11 ayı ərzində **Rusiyaya 498 milyon, Türkiyəyə 264 milyon, İsveçrəyə 133 milyon, Gürcüstana 120 milyon və İtaliyaya 52 milyon ABŞ dolları** dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunmuşdur.

2017-ci ilin 11 ayı ərzində ixrac olunan qeyri-neft sektoru məhsulları arasında **pomidor** (tomat) birinciliyini qorumuşdur (140.2 milyon ABŞ dolları). Bu siyahıda ikinci yeri **qızıl** (116.4 milyon ABŞ dolları), üçüncü yeri isə **qabığı təmizlənmiş meşə fındığı** (105 milyon ABŞ dolları) tutmuşdur.

Ümumiyyətlə isə 11 ay ərzində **meyvə-tərəvəz ixracı 453 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 109 milyon**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı 88 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 74 milyon, kimya sənayesi məhsullarının ixracı 72 milyon, pambıq ixracı 45 milyon, elektrik enerjisi ixracı 41 milyon, şəkər ixracı 39 milyon, çay ixracı 9 milyon ABŞ dolları təşkil etmişdir.

Qeyd edək ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin 11 ayı ərzində **elektrik enerjisinin ixracı 2 dəfə, pambığın ixracı 2.3 dəfə, çayın ixracı 65 faiz,** meyvə-tərəvəzin ixracı

## 2017-ci ilin 11 ayında qeyri-neft sektoru üzrə 5 əsas ixrac ölkəsi




**Mənbə:** *Dövlət Gömrük Komitəsi*

## 2017-ci ilin noyabr ayında qeyri-neft sektoru üzrə 168 milyon ABŞ dolları dəyərində ixrac olmuşdur

35 faiz, kimya sənayesi məhsullarının ixracı 35 faiz artmışdır.

Cari ilin noyabr ayında isə qeyri-neft sektoru üzrə 442 subyekt tərəfindən 168 milyon ABŞ dolları dəyərində ixrac əməliyyatları həyata keçirilmişdir.

Noyabr ayı üzrə ixrac olunan əsas mallar xurma, qabığı təmizlənmiş meşə fındığı, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda), alma, xiyar və kornişonlar, metanol (metil spirti), alüminium ərintilərindən qalınlığı 0,2 mm-dən çox olan düzbucaqlı plitələr, tomat, aşqarlanmamış alüminiumdan qalınlığı 0,2 mm-dən çox olan düzbucaqlı plitələr, ağ şəkər, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, daş kömür qatranının yüksək temperaturlu qovulmanın digər yağları və məhsulları, kimyəvi toxuculuq materiallarından böyük tutumlu elastik keçid konteynerləri, dəmirdən və ya aşqarlanmamış poladdan isti yayılmış digər burulmuş çubuqlar və s. olmuşdur. Noyabr ayında xurmanın ixracının dəyəri 39.7 milyon ABŞ dolları, qızılın ixracının dəyəri 17.9 milyon ABŞ dolları və qabığı təmizlənmiş meşə fındığının ixracının dəyəri 16.1 milyon ABŞ dolları təşkil etmişdir.

Ötən ayda qeyri-neft məhsullarının ixrac edildiyi ölkələrin siyahısında ilk beşlikdə Rusiya, Türkiyə, İsveçrə, Gürcüstan və İtaliya təmsil olunmuşdur.

Cari ilin 11 ayı ərzində qeyri-neft sektoru üzrə ixracda baş verən bu müsbət tendensiya Azərbaycan Respublikasında həyata keçirilən sistemli iqtisadi islahatlar nəticəsində davamlı artıma nail olunduğunu göstərir.

2017-ci ilin 11 ayı ərzində ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrammalarda verilmişdir.

### 2017-ci ilin noyabr ayında qeyri-neft sektoru üzrə 5 əsas ixrac ölkəsi




**Mənbə:** *Dövlət Gömrük Komitəsi*

# 2017-ci ilin 11 ayında ixrac olunan əsas qeyri-neft mallarının siyahısı

(Dəyəri milyon ABŞ dolları)




**Qeyd:** *İnfoqrammada 2017-ci ilin 11 ayı ərzində ixrac edilən 20 əsas məhsulla bağlı məlumat yer almışdır. Lakin həmin dövrdə bu məhsullardan əlavə, qeyri-neft sektoru üzrə yüzlərlə məhsul ixrac olunmuşdur.*

**Mənbə:** *Dövlət Gömrük Komitəsi*

## 2017-ci ilin noyabr ayında ixrac olunan əsas qeyri-neft mallarının siyahısı

(Dəyəri milyon ABŞ dolları)




**Qeyd:** *İnfoqrammada 2017-ci ilin noyabr ayında ixrac edilən 20 əsas məhsulla bağlı məlumat yer almışdır. Lakin noyabr ayında bu məhsullardan əlavə, qeyri-neft sektoru üzrə yüzlərlə məhsul ixrac olunmuşdur.*

**Mənbə:** *Dövlət Gömrük Komitəsi*

# Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərinin reytinqi

2017-ci ilin 11 ayında qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında 1824 subyekt iştirak etmişdir. Qeyri-neft sektoru üzrə qeyri-dövlət ixracatçı şirkətlərin və fiziki şəxslərin siyahısında ilk onluqda "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Baku Steel Company" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Sun Food" MMC, "MKT İstehsalat Kommersiya" MMC, "VN Food Export Import Company" MMC, "Azagroeksport 2017" MMC, "Aqrodoctor" MMC, "Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC və "Food Export Şəmkir" MMC təmsil olunur.

Qeyd edək ki, ötən ayla müqayisədə noyabr ayında iki şirkət - "Azagroeksport 2017" MMC və "Aqrodoctor" MMC qeyri-dövlət ixracatçı subyeklərin siyahısında ilk onluğa daxil

## Qeyri-neft sektoru üzrə ilk onluqda təmsil olunan qeyri-dövlət ixracatçı şirkətlərin reytinqi

01. "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi – 76.2 milyon ABŞ dolları
02. "Baku Steel Company" MMC – 54.2 milyon ABŞ dolları
03. "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC – 39.9 milyon ABŞ dolları
04. "Sun Food" MMC –25.9 milyon ABŞ dolları
05. "MKT İstehsalat Kommersiya" MMC – 23.4 milyon ABŞ dolları
06. "VN Food Export Import Company" MMC – 20.9 milyon ABŞ dolları
07. "Azagroeksport 2017" MMC - 18.6 milyon ABŞ dolları
08. "Aqrodoctor" MMC – 17.1 milyon ABŞ dolları
09. "Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC – 17 milyon ABŞ dolları
10. "Food Export Şəmkir" MMC – 16.99 milyon ABŞ dolları

olmuşdur.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısında isə ilk onluqda ARDNŞ-in "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi", "Det-al Alüminium" MMC, "Azergold" QSC, "Azərenerji" ASC, "SOCAR Methanol" MMC, "Ərzaq Məhsullarının Tədarükü və Təchizatı" ASC, "Geofizika və Geologiya İdarəsi", "Suraxanı Maşınqayırma Zavodu Törəmə" ASC, "Naxçıvan MR Dövlət Energetika Agentliyi" və "Azərbaycan Dəmir Yolları" QSC təmsil olunurlar.

Qeyd edək ki, ötən ayla müqayisədə noyabr ayında dövlətə məxsus ixracatçı subyeklərin ilk onluğunda hər hansı bir dəyişiklik olmamışdır. ARDNŞ-in "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" və "Det-al Alüminium" MMC ilk onluqda mövqeyini möhkəmləndirmişdir.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrammalardan tanış ola bilərsiniz.

## Qeyri-neft sektoru üzrə ilk onluqda təmsil olunan dövlətə məxsus ixracatçı şirkətlərin reytinqi

"Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi"– 135.3 milyon ABŞ dolları 01

"Det-al Alüminium" MMC – 95.8 milyon ABŞ dolları 02

"Azergold" QSC – 74.6 milyon ABŞ dolları 03

"Azərenerji" ASC – 40.1 milyon ABŞ dolları 04

"SOCAR Methanol" MMC – 39.3 milyon ABŞ dolları 05

"Ərzaq Məhsullarının Tədarükü və Təchizatı" ASC – 32.2 milyon ABŞ dolları 06

"Geofizika və Geologiya İdarəsi" – 3.7 milyon ABŞ dolları 07

"Suraxanı Maşınqayırma Zavodu Törəmə" ASC – 0.76 milyon ABŞ dolları 08

"Naxçıvan MR Dövlət Energetika Agentliyi" – 0.62 milyon ABŞ dolları 09

"Azərbaycan Dəmir Yolları" QSC – 0.54 milyon ABŞ dolları 10

# Azexport.az portalına 2017-ci ilin 11 ayında 444.6 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur

## Cari ilin noyabr ayındakı ixrac sifarişlərinin dəyəri isə 47.3 milyon ABŞ dolları təşkil etmişdir

2017-ci ilin 11 ayı ərzində Azexport.az portalına dünyanın 71 ölkəsindən **444.6 milyon ABŞ dolları** məbləğində ixrac sifarişləri daxil olmuşdur. Azexport.az portalına 2017-ci ilin noyabr ayında daxil olan ixrac sifarişlərinin dəyəri isə 47.3 milyon ABŞ dolları təşkil etmişdir.

Portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində **Rusiya (18.4 %) ilə yanaşı, Türkiyənin (7.1%), Ukraynanın (5.8%), Hindistanın (4.5%) və ABŞ-ın (4.2%)** adı vardır. Noyabr ayında Küveyt, CAR, Suriya, Macarıstan, Makedoniya kimi yeni ölkələrdən ixrac sifarişi daxil olmuşdur.

Daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə məlum olub ki, noyabr ayında ən çox ixrac sifarişləri aşağıdakı mallara daxil olmuşdur: alma, nar, nar şirəsi, nar konsentratı, toyuq yumurtası, çay, günəbaxan yağı, qarğıdalı yağı, pambıq yağı, meyvə cemi, fındıq ləpəsi, tütün, makaron, uşaq bezi, ipək xalça, şərab, qənnadı məhsulları,

### Azexport.az portalına 2017-ci ilin 11 ayında daxil olan ixrac sifarişlərinin dəyəri



**CƏMİ 444.6 MİLYON $**

Mənbə: *Azexport.az*



soğan, şüşə qablar, mühərrik yağı, şəkər tozu, quru süd və s. Maraqlıdır ki, noyabr ayında nara və ondan istehsal olunan məhsullara sifarişlərin artdığı müşahidə olunmuşdur. ABŞ, İngiltərə, Cənubi Afrika Respublikası, Rusiya, Ukrayna, Avstraliya, Qətər və s. ölkələrdən bu məhsullara sifarişlər daxil olmuşdur.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrammalarda verilmişdir

## 2017-ci ilin noyabr ayında Azexport.az portalına ixrac sifarişi daxil olan mallar




**Mənbə:** *Azexport.az*

**Qeyd:** *Noyabr ayında infoqrammada yer alan məhsullardan əlavə qeyri-neft sektorunda istehsal edilən digər məhsullara da Azexport.az internet portalı vasitəsilə ixrac sifarişləri daxil olmuşdur.*

# Azexport.az portalına 2017-ci ilin 11 ayı ərzində daxil olan ixrac sifarişlərinin ölkələr üzrə bölgüsü (faizlə)

| | | | | | |
|---|---|---|---|---|---|
| Rusiya 18.4 | ABŞ 4.2 | Gürcüstan 2.4 | Liviya 2.1 | Benin 1.6 | Türkmənistan 1.1 |
| Türkiyə 7.1 | Qazaxıstan 3.7 | İtaliya 2.1 | Çin 1.8 | Qətər 1.6 | Almaniya 1.1 |




| | | | | | |
|---|---|---|---|---|---|
| Ukrayna 5.8 | İraq 3.4 | İran 2.1 | Polşa 1.8 | Misir 1.6 | Kanada 1.1 |
| Hindistan 4.5 | Səudiyyə Ərəbistanı 3.4 | Pakistan 2.1 | Nigeriya 1.8 | İngiltərə 1.3 | Bolqarstan 1.1 |

**Mənbə:** *Azexport.az*

# Azexport.az portalı vasitəsi ilə Azərbaycandan nar və ondan istehsal edilən məhsulları sifariş edən əsas ölkələr

2017-ci ilin 11 ayı ərzində Azexport.az portalı vasitəsi ilə ixrac sifarişi daxil olan malların siyahısında nar və ondan istehsal edilən məhsullar önə çıxmışdır. Dünyanın 20-dən çox ölkəsindən nar, nar şərabı, nar şirəsi və nardan istehsal edilən digər məhsullara sifariş daxil olmuşdur. Azərbaycanın nar məhsullarına ABŞ, İngiltərə, Almaniya, Fransa, İtaliya, Kanada kimi iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdən maraq böyük olmuşdur. Həmçinin Rusiya, Türkiyə, Ukrayna, Cənubi Afrika Respublikası, Avstraliya, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, Misir, Latviya, Polşa, Hindistan, Səudiyyə Ərəbistanı, Liviya, İraq və s. ölkələrdən də nar və ondan istehsal edilən məhsulları sifariş daxil olmuşdur. Bu sifarişlərin təhlili göstərir ki, Azərbaycanın nar məhsulları rəqabət qabiliyyətlidir və bu sahədə ixrac imkanları böyükdür.



**Mənbə:** *Azexport.az*

# İxrac missiyamız Dubayda və Ciddədə uğurlu nəticələr əldə etmişdir




Cari ilin dekabr ayında Azərbaycan iş adamlarından ibarət ixrac missiyası Birləşmiş Ərəb Əmirliklərinin Dubaya və Səudiyyə Ərəbistanının Ciddə şəhərlərinə səfər etmişlər. AZPROMO-nun təşkilatçılığı ilə həyata keçirilən missiya çərçivəsində meyvə-tərəvəz istehsalı və ixracı sahəsində fəaliyyət göstərən şirkətlərimiz Yaxın Şərq ölkələrində ən iri meyvə-tərəvəz sərgisi olan "WOP Dubai"da da iştirak etmişlər. Sərgi çərçivəsində "Azərbaycanın meyvə-tərəvəz məhsularının ixrac potensialı" mövzusunda seminar keçirilmişdir. Seminarda xarici sahibkarlara rəqabətqabiliyyətli və ixracyönümlü məhsullarımız, "Made in Azerbaijan" brendinin təşviqi məqsədi ilə həyata keçirilən tədbirlər barədə məlumat verilmiş, ixrac missiyasında iştirak edən şirkətlərin fəaliyyətlər barədə təqdimatlar keçirilmişdir. Sərgi zamanı Azərbaycan məhsulları da nümayiş olunmuşdur. Meyvə-tərəvəz məhsullarımız tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanmış və Azərbaycan meyvələrinin Hindistana ixracına dair razılıq əldə edilmişdir.

İxrac missiyası çərçivəsində keçirilən görüşlərdə də bir sıra uğurlu nəticələr əldə edilmişdir. Görüşlər zamanı Azərbaycanın "Brightman BMC" şirkəti konservləşdirilmiş məhsulların BƏƏ ölkələrinə və Banqladeşə ixracına dair "Al-maya" və "Lulu" marketlər şəbəkələri və "Al-Ghamdi" trading şirkəti ilə ilkin razılıq əldə etmişdir. "Sunfood" şirkəti nar şirəsinin və çayın, "Səba" ət məhsullarının, "Kerkom" və "Azəri-bal" şirkətləri isə balın BƏƏ-yə ixracına dair "Al-maya", "Lulu", "Al-Qudva" marketlər şəbəkələri ilə danışıqlara başlamışdırlar. "Az-Granata" şirkəti nar şirəsinin Dubaya ixracına dair "Vit" şirkəti ilə ilkin razılığa gəlmişdir. "Azprotein" şirkəti "Al-Tayeb" pərakəndə və topdansatış distributor şirkəti ilə və "Choitrams" marketlər şəbəkəsi ilə ət məhsullarının BƏƏ və digər Körfəz ölkələrinə ixracına dair razılıq əldə etmişdir.

İxrac missiyası çərçivəsində missiya iştirakçıları həmçinin, bazar və iri marketlər şəbəkələrində olmuşlar.

Dekabr ayında Dubaydan sonra Səudiyyə Ərəbistanının Ciddə şəhərinə də ixrac missiyası təşkil edilmişdir. Bu missiyada meyvə şirələri, quru meyvə, konservləşdirilmiş məhsullar, bal, çay, ət və süd məhsullarının istehsalı və emalı sahəsində fəaliyyət göstərən Azərbaycan şirkətlərinin təmsil olunmuşdurlar.

İxrac missiyası çərçivəsində iş adamları bir sıra ikitərəfli görüşlərdə iştirak edib, yerli məhsullarımızın market və bazarlarda satışı imkanları və distributorluq məsələlərini müzakirə ediblər. Səfərin sonuncu günü Ciddə Ticarət və Sənaye Palatasında görüş keçirilmişdir. Görüşdə AZPROMO-nun vitse-prezidenti Yusif Abdullayev Azərbaycanın biznes mühiti, rəqabətqabiliyyətli və ixracyönümlü məhsullarımız, "Made in Azerbaijan" brendinin təşviqi tədbirləri, ixrac missiyamızda təmsil olunan şirkətlərin fəaliyyəti barədə məlumat vermişdir. Azərbaycanın Birləşmiş Ərəb Əmirliklərindəki Ticarət nümayəndəsi Elnur Əliyev isə Azərbaycan və



Körfəz ölkələri arasına ticarət əlaqələri və əməkdaşlığın genişləndirilməsi imkanları barədə danışmışdır.

Səudiyyə Ərəbistanı şirkətləri ilə keçirilən görüşlərdə Azərbaycan məhsullarına, xüsusilə də bal, ət və süd məhsullarına böyük maraq göstərilmişdir. Azərbaycanın "Kerkom" şirkəti balın, "Aqro-MTS" şirkəti isə ət məhsullarının Səudiyyə Ərəbistanına ixracı ilə bağlı bir neçə distributor şirkətləri ilə danışıqlara başlanılmışdır. "Milk-Pro" şirkəti "Sunbulah Group" distributor şirkəti ilə süd məhsullarının, "SunFood" MMC "Al-Raya" marketlər şəbəkəsi və "Al neel" distributor şirkəti ilə konservləşdirilmiş məhsulların, "Səba" şirkəti isə "Sunbullah Group", "Poultry service" və "Yamareh" şirkətləri ilə ət məhsullarının ixracına dair danışıqlara başlamışdır.

Missiya zamanı Azərbaycan sahibkarları Səudiyyə Ərəbistanının iri market şəbəkələrində olmuş, məhsullarımızın bu ticarət şəbəkələri vasitəsilə satışının təşkili imkanlarını araşdırmışlar.

# Kənd Təsərrüfatı Nazirliyi biyanın dünya bazarlarına ixracı imkanlarını araşdırmışdır

Kənd Təsərrüfatı Nazirliyinin "İcmallaşdırma və statistik təhlil" şöbəsi tərəfindən Azərbaycanda biyan istehsalı və onun dünya bazarlarına ixracı imkanları ilə bağlı araşdırma aparılmışdır. Araşdırmada göstərilir ki, biyan kökünün əkin sahəsinin dünyada böyük bir ərazidə yayılmasına baxmayaraq, irihəcmli hasilat əsasən Çin və İranın payına düşür.

## Biyan ekstraktının əsas ixracatçıları (min ABŞ dolları)

| Ölkələr | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|
| **Dünya üzrə** | **191670** | **257289** | **226900** | **183350** | **187102** |
| ABŞ | 58126 | 55903 | 50174 | 33938 | 30792 |
| Çin | 23635 | 45226 | 19604 | 21813 | 26183 |
| Fransa | 16414 | 20573 | 20676 | 14254 | 25887 |
| İran | 18031 | 31577 | 22590 | 24563 | 20803 |
| Almaniya | 14267 | 17435 | 21738 | 24197 | 19240 |
| BƏƏ | 9829 | 19445 | 27187 | 4478 | 15407 |
| İsrail | 12082 | 16375 | 14916 | 17866 | 14409 |
| Türkmənistan | 17007 | 20678 | 21225 | 18300 | 13074 |
| Yaponiya | 5940 | 4754 | 4789 | 5030 | 4758 |
| Hollandiya | 5257 | 3947 | 5714 | 4494 | 4491 |
| İtaliya | 531 | 901 | 357 | 363 | 2150 |
| Meksika | 623 | 838 | 691 | 1323 | 1300 |
| Tacikistan | 750 | 1101 | 1508 | 1972 | 1156 |
| Danimarka | 477 | 554 | 710 | 691 | 848 |
| **Azərbaycan** | **0** | **29** | **3069** | **2596** | **774** |
| **Digər** | **4802** | **11066** | **7362** | **3655** | **2775** |

Həmçinin son dövrlər Türkmənistan da biyan ekstraktının təchizatçısına çevrilir. Ümumiyyətlə isə dünya bazarında həm biyan kökü, həm də biyan ekstraktına tələbat var. Amma dünya üzrə biyan kökünün ixracı, biyan ekstraktı qədər iri həcmli deyildir və buna səbəb biyan ekstraktının satış qiymətinin daha yüksək olmasıdır.

Azərbaycana gəldikdə isə ölkəmizdə 2014-cü ildən etibarən biyan ekstraktının ixracı artmışdır. Son illərdə Azərbaycandan ixrac olunan biyan ekstraktının qiymətində azalma müşahidə olunsa da, bu dünya üzrə müvafiq göstəricidən yuxarıdır. Hazırda Azərbaycandan biyan ekstraktının ixracını yalnız Yaponiya və Çinə həyata keçirir. Bu ölkələr də öz növbəsində dünya üzrə ən böyük biyan ekstraktı idxalçılarındandırlar. Bundan başqa Azərbaycan üçün Rusiya və Türkiyə də potensial bazar hesab oluna bilər. Həmçinin hazırda dünyada biyan ekstraktını ən çox idxal edən ölkə olan Almaniyaya da Azərbaycan məhsulunun ixrac imkanları böyükdür.

Biyan məhsulunun qiymətinə gəldikdə isə bu həm də Orta Şərq ölkələrindəki iqtisadi və siyasi vəziyyətdən asılıdır. Çin məhsulu İran məhsulundan daha yuxarı qiymətə satılır, çünki Çin məhsulunun tərkibindəki qliserin turşusunun yüksək konsentrasiyası ilə əlaqədar ona olan tələbat daha yüksəkdir. Sertifikatlaşdırılmış üzvi biyan ekstraktının qiyməti adi ekstraktdan iki dəfə yuxarı olur. Əsas ekstrakt istehsalı mərkəzləri İran və Çində yerləşir. Ancaq Çin




istehsalçıları son dövrlər öz satışlarını daha çox daxili bazara istiqamətləndirirlər, odur ki, biyan kökü və ekstraktının ənənəvi ixracatçısı olan Çin hazırda idxalçıya çevrilməkdədir. Bu, həm tələbatın artması, həm də Çində təchizatın aşağı düşməsi ilə əlaqədardır.

Qeyd etmək lazımdır ki, biyan köklərinin toplanması asan olsa da ekstraktın hazırlanması əhəmiyyətli həcmdə investisiya tələb edir.

Coğrafi olaraq qlobal biyan ekstraktı bazarı Orta Şərq və Afrika, Avropa, Şimali Amerika, Latın Amerikası və Asiya-Sakit okean bazarlarına bölünür. 2016-cı il üçün Çin, Hindistan və Yaponiya tərəfindən idarə olunan Asiya-Sakit okean bazarı qlobal biyan ekstraktı bazarının 32%-ni təşkil edərək dominant mövqe tutur.

2016-cı ildə qlobal biyan ekstraktı bazarındakı paya görə ikinci yerdə gələn Avropa bazarının yaxın gələcəkdə də eyni mövqedə olacağı proqnozlaşdırılır.

İstehlakçıların sağlam həyat tərzini tərcih etmə meylləri ilə əlaqədar aşağı kalorili ərzaq məhsullarına olan tələbin artması bu regional bazarın da həcmini artıracağı gözlənilir. Birləşmiş Krallıq, Almaniya, Fransa və İtaliya Avropa biyan ekstraktı bazarının aparıcı ölkələridir. Azərbaycanlı istehsalçıların bu ölkələrə məhsul ixrac etmək imkanları mövcuddur.

# İnnovativ məhsullar və İT xidmətlərin ixrac potensialı müzakirə olunmuşdur



Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Texnologiyalar və İnnovasiyalar: İqtisadi islahatlar və inkişaf perspektivləri" mövzusunda birgə konfrans keçirmişdir.

Azərbaycanda innovativ inkişaf perspektivlərinin müzakirəsinə həsr olunmuş konfransda dövlət, özəl və xarici qurumlardan 100-dək mütəxəssis iştirak etmişdir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı çıxışında bildirmişdir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan islahat prosesi innovasiyayönümlü inkişaf üzərində qurulmuşdur. Ölkəmizdə innovativ layihələrin dəstəkləndiyini bildirən V.Qasımlı elmin kommersiyalaşdırılması istiqamətində görülən işlərin səmərəli nəticələr verdiyini vurğulamışdır. Qeyd edilmişdir ki, yüksək texnologiyalar və innovasiya siyasətinə diqqətin artırılması Azərbaycan elminin dünyada baş verən elmi-texnoloji proseslərdə aparıcı mövqe tutmasına təkan verəcəkdir.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə qeyd etmişdir ki, innovativ inkişaf üçün ölkəmizdə müvafiq institusional qurumlar yaradılmış, bu prosesə dəstək vermək üçün əlverişli mühit formalaşdırılmışdır. Prezident İlham Əliyev tərəfindən təsdiq edilən Strateji Yol xəritələri ölkəmizin innovativ inkişafının daha da sürətləndirilməsinə xidmət edir. Bu fəaliyyət ölkənin elmi, istehsalat, tədris, iqtisadi və kadr potensialının qarşılıqlı əlaqəsinin güclənməsinə və nəticədə yeni elmi ixtiraların, müasir texnologiyaların və məhsulların, perspektiv həllərin meydana çıxmasına səbəb olacaqdır.

Konfransda "İslahatların innovasiyaların və İKT-nin inkişafında rolu" və "İnnovativ məhsullar və IT xidmətlərin ixrac potensialı" mövzularında panel müzakirələr təşkil edilmişdir. IT xidmətlərin ixrac imkanları ilə bağlı maraqlı təkliflər səslənmişdir.

Müzakirələrdə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, "Azərkosmos" ASC, "ASAN xidmət", "B.EST Solutions", "Deloitte consulting", "Microsoft" şirkətlərinin, o cümlədən Azərbaycan Milli Elmlər Akademiyasının Yüksək Texnologiyalar Parkının, İnnovasiyalar Mərkəzinin nümayəndələri təqdimatlarla çıxış etmiş, iştirakçıların suallarını cavablandırmışlar.





# Pambıq, tütün və ipək məhsullarının istehsalı, emalı və ixracı ilə məşğul olan yerli şirkətlərin nümayəndələrinə təlim keçirilmişdir



2017-ci il 15 dekabr tarixində İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin inzibati binasında pambıq, tütün və ipək məhsullarının istehsalı, emalı və ixracı ilə məşğul olan yerli şirkətlərin nümayəndələrinə Azexport.az internet portalından istifadə barədə təlim keçirilmişdir. Məlumat üçün qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 iyul tarixli 3082 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017–2022-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə tədbirlər planının 7.5.3-cü bəndində, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 avqust tarixli 3163 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017–2021-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə tədbirlər planının 7.5.5-ci bəndində və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə tədbirlər planının 8.5.3-cü bəndində Kənd Təsərrüfatı və İqtisadiyyat nazirlikləri ilə birgə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin də qarşısına pambıq, tütün və ipək məhsullarının istehsalı, emalı və ixracı ilə məşğul olan yerli şirkətlər barədə məlumatların Azərbaycanda istehsal olunan malların vahid məlumat bazası üzrə portalda(Azexport.az) yerləşdirilməsi məsələsi qoyulmuşdur. Bu 3 proqramın icrasını təmin etmək məqsədi ilə keçirilən tədbirdə iştirak edən 30 yaxın yerli şirkətin nümayəndəsinə Azexport.az internet



portalı barədə ətraflı məlumat verilmişdir. Azexport.az internet portalının meneceri Ayxan Qədəşov təlimdə təqdimatla çıxış etmiş və şirkətlər nümayəndələrinə məhsulları portala yerləşdirilməsi qaydasını izah etmişdir.

Azexport.az internet portalının rəhbəri Zaur Qardaşov şirkət nümayəndələrini maraqlandıran sualları cavablandırmışdır.

Təlimdən sonra pambıq, tütün və ipək məhsullarının istehsalı, emalı və ixracı ilə məşğul olan yerli şirkətlərin nümayəndələri "Bir Pəncərə" İxraca Dəstək mərkəzi ilə tanış olmuşlar.



# İXRAC İCMALI



## İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

## Bizimlə əlaqə


(+994)12 5213318

info@ereforms.org

Bakı şəhəri, Yasamal rayonu, L.Landau küçəsi, 16


/iqtisadiislahat